# Bərpa-quruculuq işləri Azərbaycanın iqtisadi gücünün göstəricisidir

*Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*




***İkinci Qarabağ müharibəsindən bir il ötür. Xalqımız bir ildir Vətən müharibəsində qazanılan zəfərin sevincini yaşayır. Bir il bundan əvvəl Ermənistan silahlı qüvvələri, təxribatlar törədərək mövqelərimizi, eləcə də yaşayış yerlərimizi atəşə tutmuşdu. Hər bir azərbaycanlı atəşkəs elan edildikdən sonra xain düşmənin bu razılaşmanı pozaraq, dəfələrlə cəbhəboyu təxribatlar törətdiyini, təlim keçirirmiş kimi mövqelərimizi atəşə tutduğunu, əsgərlərimizin isə sadəcə özünümüdafiə xarakterli cavab həmlələri etdiyini yaxşı xatırlayır. Uşaqdan-böyüyə hər kəs televiziya kanallarımızda tez-tez səslənən "düşmən cavab atəşiylə susdurulub" cümləsini müharibə yaddaşının bir küncünə həkk edib.***

Baş verən hadisələr, Ermənistan rəsmilərinin qıcıqlandırıcı iddiaları, eləcə də təxribatların sayının və miqyasının böyüməsi Azərbaycan Prezidentinin, eləcə də xalqın səbr kasasını daşırırdı. Bu mənada, Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır, nöqtə" iddiası, onun sərxoş halda Şuşamızda , Cıdır düzündə rəqs etməsi, bizim üçün müqəddəs hesab edilən dəyərlərin təhqir olunması müharibənin qaçılmaz olduğunu göstərirdi.

2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatı Azərbaycan Ordusunun bütün cəbhə boyu başlatdığı əks-hücum əməliyyatı ilə cavablandırıldı. Beləliklə, dövlətçilik tariximizin ən şanlı 44 günü başlandı. Azərbaycan Silahlı Qüvvələri bir-birinin ardınca topaqlarımızı işğaldan azad edir, bu xəbərlər ölkə ərazisində bayram ab-havası yaradırdı.

Müharibə bitdi, işğal altındakı torpaqlarımız azad edildi, otuz illik həsrət vüsala yetdi. Prezident İlham Əliyev xalqa bu müjdəni verərkən, xüsusilə qeyd etdi ki, Azərbaycanda bundan sonra bərpa-quruculuq dövrü başlayır. Əlbəttə, işğaldan azad edilən torpaqlarda ermənilərin törətdikləri dağıntılar, mövcud vəziyyət bizim üçün ən böyük əngəl idi. Lakin Prezidentimiz xalqa müraciətində qeyd etdi ki, biz o bölgələri bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımlar atılacaq. Çox keçmədən ilk layihələr icra edilməyə başlandı. Prezidentin ehtiyat fondundan bu işlərin icrası üçün müvafiq vəsait ayrıldı.

Bildiyimiz kimi, bölgənin pərakəndə şəkildə minalanması işlərin ləngiməsinə səbəb olan ən böyük amillərdən biri idi. Prezident İlham Əliyev bu barədə danışarkən mina xəritələrinin bizə təhvil verilməməsini düşmənin növbəti insanlıq cinayəti adlandırmışdı.

Dövlətimizin başçısı çıxışlarında qeyd edir ki, bizim gördüyümüz bərpa-quruculuq işləri Vətən müharibəsinə layiq olmalıdır. Buna görə də, respublika ərazisindəki mövcud potensialın, resursların böyük əksəriyyəti Qarabağın bərpasına cəlb edilib. Təbii ki, insanların bu ərazilərə qayıtması üçün birinci növbədə vacib olan ehtiyacların təmin edilməsi lazımdır. İşlər də məhz bu istiqamətdə başlandı.

***(ardı 2-ci səhifədə)***



# Bərpa-quruculuq işləri Azərbaycanın iqtisadi gücünün göstəricisidir

**(əvvəli 1-ci səhifədə)**

Qeyd olunduğu kimi, minaların təmizlənməsi işləri gecikdirsə də, təhlükəsizliyin təmin olunması baxımından vacib idi. Dövlət başçısı bu mənada demişdir: "Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın".

Beləliklə, quruculuq işləri əvvəlcə insanların yaşaması üçün lazım olan əsas faktorların bərpa edilməsi istiqamətində start götürdü. Təbii ki, bu mənada ən mühüm işlərdən biri bölgənin elektrik enerjisi ilə təmin edilməsi idi. Çünki elektrik enerjisi olmadan ərazidə heç bir işi tamamlamaq mümkün deyildi. Daha sonra su və qaz xətlərinin çəkilməsi, yaşayış binalarının tikilməsi işləri başlandı. Bunlara paralel olaraq davam edən ən mühüm işlərdən biri də işğaldan azad edilən ərazilərdəki yolların bərpası, yenidən çəkilməsi idi. Bundan əlavə, 30 il ərzində əlaqəmizin kəsildiyi bu ərazilərə aparan digər yollarda da əsaslı təmir işləri başlandı. Tezliklə müvafiq sahələr üzrə təcrübəyə sahib yerli və xarici şirkətlər əraziyə cəlb edildi. Müharibə dövründə olduğu kimi, Qarabağın bərpası prosesində də qardaş Türkiyə Azərbaycanın ilk dəstəkçisi oldu. Türkiyədən əlavə İtaliya, Çin və İsrail şirkətləri Qarabağın bərpası prosesinə dəvət edildilər.

Dövlətimizin başçısı hər dəfə xüsusi olaraq qeyd edir ki, biz bu bölgədə yaradılan şəraitin əvvəlkindən də yaxşı olması üçün çalışırıq. Prezident İlham Əliyev istər bölgədəki dağıntıların miqyasını görmək, mövcud vəziyyətlə yerində tanış olmaq, istərsə də hazır edilən layihələrlə tanış olmaq üçün tez-tez işğaldan azad edilən ərazilərə səfərlər edir. Bu səfərlər çərçivəsində ölkə başçısına şəhər mərkəzlərinin baş planı, eləcə də digər layihələr təqdim edilir, görülən işlərlə bağlı məlumat verilir. Bu da onu deməyə əsas verir ki, bərpa prosesi də Vətən müharibəsi qədər ciddiyətlə və xüsusi həssaslıqla idarə edilir.

Bu mənada, xüsusi qeyd edilməli məsələlərdən biri də, işğaldan azad edilən ərazilərdə inşa olunacaq 3 hava limanıdır. Məlum olduğu kimi, hər üç hava limanı beynəlxalq statusludur ki, onlardan biri – Füzuli Beynəlxalq Hava Limanı cari ilin sentyabrında istifadəyə verilib.

Xüsusi vurğulanmalı məsələrdən biri də, işğladan azad edilmiş ərazilərdə icra edilən "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarıdır. Bu konsept üzrə həmin kəndlərdə – şəhərlərdə müasir məktəblər, bağçalar, poliklinikalar və elektron idarəetmə mərkəzləri tikilir, turizm infrastrukturu yaradılır. Bundan əlavə, bütün binalar, obyektlər, kənd təsərrüfatı məhsullarının emalı alternativ enerji mənbələri ilə təmin edilir. Qeyd etmək lazımdır ki, bu, ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün də önəmli addımlardan biridir.

Ümumiyyətlə, işğaldan azad edilən bölgələrimizdə görülən işlər ölkəmizin iqtisadi potensialından xəbər verir. Prezident İlham Əliyevin dediyi kimi, Qarabağın bərpa prosesi bizim həm niyyətimizi, həm də iqtisadi gücümüzü göstərir.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.-16 noyabr.- S.1;2.